*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 335-344*
https://doi.org/10.62837/2024.5.335

**AYBƏNIZ ƏHNƏDOVA**
**SƏBINƏ QASIMOVA**
AzMİU
"Əcnəbi-dillər" kafedrasının baş müəllimləri
aybanizahmadova50@gmail.com
sabinaqasimova@gmail.com

# AİLƏ TƏRBİYƏSİNİN PRİNSİPLƏRİ VƏ MƏZMUNU

## XÜLASƏ

Ailə nəsili davam etdirən insanların optimal soko-pedaqoji tələblərini ödəmək, onun qorunmasına xidmət etmək deməkdir. Ailənin əsas məqsədi insanı təhsili bir şəxs kimi formalaşdırmaqdır.

Ailə tərbiyəsində əsas yer mənəvi tərbiyədir.

Validenlər uşaqları ilə daha dərindən münasibətdə olmalıdırlar ki, onların nə fikirdə olmasını bilsinlər.

Validenlər bu vəziyyətdə uşaqlarının çatışmazlığının qarşısını ala bilərlər.

Valdenlər uşaqlarının sirlərinə düzgün münasibət göstərməlidirlər.

Uşaqlar və valdenlər arasında başqa münasibətlərə rast gəlinir.

Bəzi validenlər özlərinə daha çox vaxt ayırır, amma uşaqlar kənarda qalır. Bu zaman uşaqlarda küskünlük və tənhalıq yaranır.

Valdenlərin pedoqoji maarifsizliyi uşaqlar və validenlər arasında düşmənçilik münasibətlərinə gətirib çıxara bilir.

Validenin davranışında bir sıra göstəricilərə toxunulur:

1. Tərbiyə prosesində himayəçiliyin səviyyəsi.
2. Yeniyetmələrin tələbatlarının yerinə yetirilməsi.
3. Ailədə yeniyetməyə olan tələblərin sayı.
4. Qadağa tələblərin sayı.

***Açar sözlər: münasibət, tələb, sosial vəziyyət,humanistlik, ailə tərbiyəsi, uyğunlaşma, təsəvvür.***

***Keywords: relationship, demand, social, situation, humanism, family care, adaptation, imagination.***

***Ключевые слова: Отношение требовать, общественная ситуация, гуманизм, семейное воспитание, присрособление, воображение.***

Şəxsiyyətin əsasını qoyan cəmiyyətin ilkin struktur vahidi ailədir. O, qan və qohumluq münasibətləri ilə ər-arvadı, uşaqları və valideynləri birləşdirir. İki insanın

nikahı – hələ ailə demək deyil, ailə uşaq doğulduqdan sonra yaranır. Ailənin əsas funksiyası özünü insan nəslinin yaradılmasında, uşağın doğulmasında və tərbiyəsində büruzə verir.

Ailə insanların sosial-pedoqoji qrupu kimi onların optimal tələblərini ödəmək, nəsli davam etdirmək, onun qorunmasına xidmət etmək və hər bir üzvünün özünütəsdiqi (özünühörməti) deməkdir. Ailə dedikdə yalnız insanın yaşadığı otaq deyil, onun hər zaman gözlənildiyi yer, onu sevənlərin, başa düşənlərin, daima, müdafiə edənlərin yığışdığı bir yer, məkan nəzərdə tutulur. Bütün şəxsi keyfiyyətlər ailədə formalaşa bilər. Ailənin şəxsiyyətin inkişafında, insanın formalaşmasında taleyüklü əhəmiyyəti hamıya bəllidir.

Ailə tərbiyəsi konkret ailədə valideyn və qohumların köməyi ilə yaranan tərbiyə və təhsildir.

Ailə tərbiyəsi mürəkkəb sistemdir. Həm irsi, həm bioloji (təbiətlə bağlı) amillər uşaqların və valideynlərin sağlamlığına təsir edir; maddi-texniki təminat, sosial vəziyyət, həyat şəraiti, ailə üzvlərinin sayı, ailənin yaşadığı yer (evin yerləşdiyi yer), uşağa münasibət və s. Üzvi surətdə hər bir konkret halda ailədə müxtəlif cür özünü göstərir.

Bəs onda ailənin vəzifələri nədən ibarətdir?

Ümumi şəkildə onları aşağdakı kimi təsvir etmək olar:

-uşağın inkişafı və böyüməsi üçün maksimal şəraitin yaradılması;

-uşağın sosial-iqtisadi və psixoloji müdafiəsinin təşkili;

-ailənin yaradılması və qorunub saxlanması təcrübəsini uşaqlara ötürmək bacarığı;

-uşaqları tətbiqi vərdiş və bacarıqlara; yaxın insanlara yardım etmə bacarıqlarına və özünəxidmətə alışdırma;

-uşaqlarda “mən” dəyərini, ləyaqət hissini tərbiyəetmə.

Ailə tərbiyəsinin öz prinsipləri var. Onlar aşağdakılardır:

-böyüyən insana qarşı humanistlik və rəhmdillik;

- uşaqları ailənin həyat fəaliyyətinə onun bərabərhüquqlu üzvləri kimi cəlb etmə;

-ailədə uşaqlara açıq və inamlı münasibət;

-ailə münasibətlərində nikbinlik;

-tələblərdə ardıcıllıq;

-hər bir uşağa imkan dairəsində lazımi köməklik göstərmək, onların suallarını cavablandırmaq.

Bu prinsiplərdən başqa bir sıra xüsusi prinsiplər də vardır ki, ailə tərbiyəsinin konkret situasiyalarında onların nəzərə alınması çox vacibdir.

Ailə tərbiyəsinin məzmunu bütün istiqamətləri özündə əhatə edir. Ailədə uşaqların fiziki, estetik, əmək, əqli, mənəvi tərbiyəsi həyata keçirilir və yaş

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 335-344*
dəyişdikcə tərbiyə işinin forma və məzmunu da dəyişir. İmkan daxilində ailələr və ailəyə yaxın olanlar uşaqlara təbiət, cəmiyyət, istehsalat, peşələr, texnika haqqında biliklər verir, onlarda yaradıcı fəaliyyət və təcrübə formalaşdırır, bəzi intellektual vərdişlər, nəhayət, həyata, dünyaya, insanlara, peşəyə münasibət tərbiyə edirlər.

Ailə tərbiyəsində əsas yeri mənəvi tərbiyə tutur. Bura xeyir- xahlıq, böyüklərə, kiçiklərə və zəiflərə qarşı diqqət və rəhmdillik, vicdanlılıq, təvazökarlıq, açıqlıq, əməksevərlik və s. keyfiyyətlərin tərbiyə olunması aiddir. Bəzən buraya itaətkarlığı da əlavə edirlər, lakin itaətkarlığı heç də hamı müsbət xüsusiyyət kimi dəyərləndirib qəbul etmir.

Son illərdə, demək olar ki, bir çox ailələrə dini tərbiyə güclü şəkildə daxil olmuşdur. Burada insanın doğulması və vəfatı ilə bağlı ümumbəşəri dəyərlərə yiyələnmə, ənənəvi mərasim və adətlər də maraq dairəsindədir.

Ailə tərbiyəsinin məqsədi şəxsiyyətdə həyat yolunda yaranan çətinlikləri və sədləri aradan qaldırmağa imkan verən keyfiyyətlərin formalaşdırılmasıdır. İntellektin, yaradıcı bacarıqların, qabiliyyətlə- rin inkişafı, ilkin əmək fəaliyyəti təcrübəsi, mənəvi və estetik cəhət- dən formalaşma, uşaqların fiziki sağlamlığı, onların xoşbəxtliyi bütün bunların hamısı ailədən, valideynlərdən asılı olmaqla, ailə tər- biyəsinin əsasını təşkil edir. Valideynlər birinci tərbiyəçilər kimi uşaqlara daha güclü təsir imkanına malikdirlər. Hələ J.J.Russo təsdiqləyirdi ki, hər növbəti tərbiyəçi uşağa əvvəlkindən daha çox təsir edir.

Ailə tərbiyəsinin öz metodları vardır. Bunların sırasında şəxsi nümunə, müzakirə, inam, nəyi isə nümayiş etdirmə, sevgi-məhəb- bətin özünü büruzə verməsi, bu və ya digər işlə bağlı başqasının qayğısına qalma, şəxsiyyəti ucaltma, nəzarət, yumor, tapşırıq, ənənələr, şöhrətləndirmə, mükafatlandırma və s. ola bilər. Burada seçim yalnız konkret situativ şərait nəzərə alınmaqla aparıla bilər.

## AİLƏDƏ DÜZGÜN APARILMAYAN TƏRBİYƏNİN ƏSAS TİPLƏRİ

Ailə tərbiyəsi uşağa sevgidən başlayır. Pedaqoji nöqteyi- nəzərdən valideyn məhəbbəti elə bir hissdir ki, burada uşaqların sevgisini qazanmaq, onların maddi cəhətdən hansısa arzu-istəklə- rinə əməl etməkdən daha vacibdir. Kor ağıla, düşüncəyə söykənmiş valideyn sevgisi uşaqlarda istehlakçılığa xidmət etməklə, əməyə münasibəti bəsitləşdirir, ucuzlaşdırır, valideynlərə sevgi və mə- həbbət hissini korşaldır.

Pedaqoqlar qeyri-düzgün tərbiyənin bir neçə tipini müəyyən- ləşdirmişlər.

*Nəzarətsizlik*: bu zaman valideynlər yalnız öz işləri ilə məşğul olur və uşaqlara lazımınca diqqət yetirə bilmirlər. Nəticədə onlar özbaşına qalır, istədikləri kimi şənlənmək axtarışında olur və "küçə" kompaniyalarının təsiri altına düşürlər.

*Hiperqəyyumluq*: uşağın həyatında olan bütün məsələlərə həd- dindən artıq diqqət yetirmə və nəzarətətmədə özünü göstərir; uşaq daim sərt əmrlər, çoxsaylı

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 335-344*

qadağalar eşidir. Nəticədə o, qeyri-cəsur, qeyri-təşəbbüskar, qorxaq, öz qüvvəsinə inamsız kimi böyüyür, özünün və maraqlarının müdafiəçisi kimi çıxış etməkdən məhrum olur. Burada tədricən “nə üçün başqalarına hər şey olar, mənə olmaz?" fikri ortaya çıxır. Yeniyetmələrdə bütün bunlar valideyn qadağalarına qarşı qiyamlarla nəticələnir və onlar prinsipial olaraq, bilərəkdən bütün qadağaları pozur, evdən qaçmağa meyl edirlər.

Hiperqəyyumluğun digər növü ailədə “pərəstiş" tipinə uyğun tərbiyədir. Uşaq daim diqqət mərkəzində olmağa adət edir, onun bütün arzu və tələbləri qeyd-şərtsiz yerinə yetirilir, onu daim tərifləyirlər. Məhz belə münasibətə görə, o, böyüyəndə öz imkan- larını düzgün qiymətləndirə, eqosentrizmini dəf edə bilmir, kollek- tiv isə onu başa düşmür. Bu hisslər ona pis təsir edir, nəticədə o, hamını təqsirləndirir, öz səhvləri barədə qətiyyən düşünmür və bu səhvlər onda ömür boyu xoşagəlməz hiss, həyəcan gətirən xarakter formalaşdırır.

*Etinasızlıq*: emosional səfillik və soyuqluq şəraitində həyata keçir. Uşaq hiss edir ki, atası, yaxud anası əslində qəlbən onu sev- məsə də, ətrafdakılara görə ona qarşı riyakar sevgi nümayiş etdirir- lər. Zahirən ailəni əhatə edən insanlarda elə təsəvvür yarana bilər ki, guya valideynlər ona qarşı son dərəcə diqqətli və xeyirxahdırlar. A.Tolstoy yazırdı: "Xeyirxah riyakarlıqdan pis şey yoxdur, xeyir- xah riyakarlıq açıq qəddarlıqdan daha pis təsir göstərir, xoş olma- yan nəticələrə gətirib çıxarır. Uşaq hiss etdikdə ki, ailənin digər üzvünü ondan daha çox sevirlər, o, həyəcan keçirir. Belə vəziyyət əsəblərin həddən artıq gərilməsinə, bu və ya digər çatışmazlıqlara, uşaqların hirsli olmasına gətirib çıxarır.

*Sərt tərbiyə tipi*: ən kiçik səhvlərə görə uşağın ciddi şəkildə cəzalandırılması ilə müşayiət olunur. Belə halda uşaq daim qorxu içində böyüyür. K.D.Uşinski qeyd edirdi ki, qorxu bütün nöq- sanların əsasını təşkil edir. Qəddarlıq, sərtlik, başqasının məcbur etdiyi şəraitə uyğunlaşma, başqasının diqtəsi ilə hərəkət etmə qor- xudan yaranır.

*Yüksək mənəvi məsuliyyət şəraitində tərbiyə*: kiçik yaşlarından uşağın beyninə belə bir fikir yeridilir ki, o, mütləq valideynlərin böyük, çoxsaylı inamlarını, arzularını doğrultmalıdır. Yaxud da ona nəinki uşaq kimi baxırlar, həm də onun üzərinə daha böyük qayğılar, məsuliyyət qoyurlar. Beləliklə, belə uşaqlarda daim özünün və ya- xınlarının rahatlığı ilə bağlı həyəcan, qorxu hiss olunur. Uşağın qeyri-düzgün tərbiyəsi onun xarakterini eybəcərləşdirir, əsəblərini kor- layır, ətrafdakılarla qarşılıqlı münasibətin yaratmasını çətinləşdirir.

Ailədə yol verilməz tərbiyə metodlarından biri fiziki cəza meto- dudur. Burada uşaqlar daim qorxunun köməyi ilə özlərini idarə edirlər. Fiziki cəza fiziki, psixi, mənəvi zədələrə gətirib çıxarır. Bu, nəticədə uşaqların davranışının dəyişilməsi ilə başa çatır. Belə ki, hər dəfə cəzalandırılan yeniyetmədə adaptasiya ilə bağlı

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 335-344*

mürəkkəbləşmə gedir, onun kollektivə uyğunlaşması çətinləşir. Belə uşaqlarda təlimə maraq aşağı düşür, sönükləşir.

Alimlər bu hadisəni xüsusi fenomen kimi qeyd etmiş, onu "uşaqlara təhlükəli münasibət sindromu" adlandırmışlar. Müxtəlif ölkələrin qanunvericiliyində uşaqlarla belə davranan insanlar haq- qında müvafiq qurumlara məlumatın verilməməsi üçün məsuliyyət müəyyənləşdirilmişdir.

Fiziki cəzaya oğlanlar daha çox məruz qalırlar. Nəticədə onlar qəddarlaşır, digərlərini alçaltmaq, döymək, məsxərəyə qoymaq kimi mənfi keyfiyyətlərin daşıyıcısına çevrilirlər.

"Uşaqlara təhlükəli münasibət sindromu"nun səbəbləri çox hallarda ailənin sosial-iqtisadi statusunda, münasibətlər sistemində gizlənmişdir. Fiziki cəzalara, əsasən, atanın statusu az olan ailələrdə daha çox müraciət edirlər.

Valideynlərin uşaqlarla daha münbit münasibətlərinin müxtəlif variantı o zaman meydana çıxır ki, onlar qarşılıqlı ünsiyyətdə sabit tələblər hiss edirlər. Valideynlər səmimiyyət nümayiş etdirir, mü- nasibətlərdə qarşılıqlı inama, bərabərhüquqluluğa üstünlük verirlər. Uşaqları belə dərk etmə, onların yaş tələblərini nəzərə alma daha yaxşı nəticələr verir. Uşaqlara əmr vermək, qorxutmaq və əxlaq haqqında moizələr söyləməkdənsə, daha çox qulaq asmaq, dostluq münasibəti yaratmaq, bu və ya digər məsələlərin həlli yolunu birgə axtarmaq daha çox fayda verə bilər. Valideynlər uşaqların maraqlarına daha dərindən bələd olduqda və uşaqlar onlarla həmfikir olduqda da münasibətlərdə bəzi ça- tışmazlıqlar özünü büruzə verə bilər. Bu valideynlər lazımi diqqət və takta malik olmadıqda, uşaqların sirlərinə düzgün münasibət göstərmədikdə, onların inkişaf dinamikasını lazımınca qiymətlən- dirə bilmədikdə baş verir. Uşaqla münasibət zamanı səs tonunu ucaltmaq daha pis nəticələrə gətirib çıxara bilər. Sözsüz ki, vali- deynlər uşaqların maraq və qayğısına nəzər yetirmək istəyirlər. Lakin uşaqlar bunu dərk etmək istəmir, öz aləmində olur, valideyn- lər isə uşaq dünyasına daxil olmağı bacarmır, baxışlarını onlara məcburi qəbul etdirə bilmir və lazımsız tənqidi iradlarla rastlaşırlar. Bu zaman ailə cəhdlərinin qeyri-müvəffəq, ziddiyyətli nəticəsi ortaya çıxır, uşaq isə sanki fəryad qopararaq: “Əziz valideynlər, əgər siz məni tərbiyə etsəniz, mən evdən qaçacam!" deyir. Uşaqlarla valideynlər arasında digər münasibət variantlarına da rast gəlinir. Valideynlər daim özlərinə diqqət yetirir, işə daha çox can yandırır, öz aralarında daha çox əylənir və, nəticədə, uşaqlarla ünsiyyətdən kənarlaşır, onlara diqqət yetirmirlər. Belə olduqda uşaqların daxilində, düşüncəsində küskünlük, bədbinlik və tənhalıq hissi yaranır. Bəzən də elə olur ki, uşaqların azad, müstəqil həyata can atma- ları ailədə ziddiyyətə gətirib çıxarır və valideynlərin bundan haqlı şəkildə narazılığı onlarda təhsilə qarşı birtərəfli münasibətə gətirib çıxarır. Bu da uşaqların xoşagəlməz cəhətlərinin - siqaret çəkmə, alkoqollu içki qəbul etmə, narkotiklərə meyllini ortaya çıxarır. Valideynlərin haqlı olmaqlarına baxmayaraq,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 335-344*

uşaqlara elə gəlir ki, valideynlər düzgün danışmırlar, necə yaşamağı onlar özləri daha yaxşı bilirlər. Belə vəziyyət yarandıqda, valideynlər uşaqların arzu və istəklərinin motivlərini, meyllərini daha dərindən öyrənməli, onların bu və ya digər hərəkətlərinə, arqumentlərinə hörmətlə ya- naşmalı, onlara öz arqumentlərini inamlı şəkildə əsaslandırmağa imkan verməlidirlər.

Valideynlərin pedaqoji cəhətdən maarifsizliyi, onların qəddar- lığı, tərbiyədə sərt metodlardan istifadə və uşaqların həddindən artıq ərköyün böyüməsi ailədə qarşılıqlı üz döndərməyə, uşaqlarla valideynlər arasında düşmənçilik münasibətlərinə gətirib çıxara bilər.

## VALİDEYNİN DAVRANIŞ GÖSTƏRİCİLƏRİ

Valideynin davranışında aşağıdakı göstəriciləri fərqləndirirlər:

1. *Tərbiyə prosesində himayəçiliyin səviyyəsi.* Burada söhbət valideynlərin yeniyetmənin tərbiyəsinə nə qədər qüvvə, diqqət və vaxt sərf etməsindən gedir. Himayəçilik səviyyəsində iki cür kənarlaşma müşahidə olunur: həddən artıq (hiperhimayəçilik) və az (hipohimayəçilik). *Hiperhimayəçilik* haqqında valideynlər yeniyet- məyə həddindən artıq qüvvə, vaxt, diqqət yetirdikdə danışırlar və onun tərbiyəsi valideynlərin həyatında əsas yer tutur. Burada, demək olar ki, valideynlər həyatını uşağın tərbiyəsinə həsr edirlər. *Hipohimayəçilik* -himayəçililiyin son dərəcə zəif, aşağı vəziyyətidir. Bu halda yeniyetmə valideynlərin diqqət periferiyasından kənarda qalır. Sanki uşağa əl çatmır, onun barəsində heç fikirləş kənarda qalar yalnız uşaqla mütəmadi deyil, bir şey bas verdikdə məşğul olur, maraqlanır, onun haqqında düşünürlər.

2. Yeniyetmənin tələbatlarının yerinə yetirilməsi dərəcəsi Valideynlərin fəaliyyəti, əsasən, yeniyetmənin tələbatlarının ödə nilməsinə istiqamətlənir. Bu halda onların maddi durumu, məişəti, qidalanması, geyimi, oyun əşyaları və hər şeydən öncə, valideyn lərlə ünsiyyəti diqqət mərkəzində durur. "Sparta tərbiyəsi" hima- yəçiliyin yüksək səviyyəsinin nümunəsidir (valideyn tərbiyə ilə daha çox məşğul olur, uşağa çox diqqət yetirir) və uşaqların, yeniyetmələrin tələbatları ən aşağı səviyyədə ödənilir. Tələbatlarının ödənilməsi dərəcəsində iki kənarlaşma mümkündür:

a) uşaqların hərəkətlərində pis işə gözyumma əsasən o zaman baş verir ki, valideynlər yeniyetmənin hər hansı tələbatlarını maksi- mum dərəcədə ödəməyə çalışırlar, daha doğrusu, onu ərköyünləş- dirirlər. Onun hər bir arzusu valideynlər üçün qanuna çevrilir. Belə tərbiyənin zəruriliyini bəzən izah etmək üçün, valideynlər arqu- mentlər gətirməkdən çəkinmirlər. Buna səbəb uşağın zəifliyi, fərdi- liyi, valideynin özünün vaxtilə əldə edə bilmədiyini uşağına ver- məsi, ailədə tək övlad olması atasız böyüməsi və s. ola bilər.

b) yeniyetmənin bütün tələbatlarının ödənilməsi: tərbiyənin belə üsulu valideynin yeniyetmənin tələbatlarının lazımınca ödənilməsinə can atması ilə xarakterizə olunur. Bu zaman uşaq valideynin emosional münasibətinin, ünsiyyətinin, ona məhəbbətinin ifrat dərəcədə olmasından əziyyət çəkir.

3. Ailədə yeniyetməyə olan tələblərin sayı: Yeniyetməyə olan tələblər tərbiyə prosesinin mühüm hissəsidir. Əvvəla, bu, yeniyet- mənin "vəzifəsidir", daha doğrusu, yeniyetmənin yerinə yetirdiyi tapşırıqlardır (təlim, özünə baxması, öz məişətinin təşkili, ailənin digər üzvlərinə kömək və s.). İkincisi, bu, qadağa - tələblərdir ki, yeniyetmə onları etməli deyil və yeniyetməyə olan tələbin yerinə yetirilmə sanksiyalarını (yumşaq mühakimədən sərt cəzalandırma- ya qədər) nəzərdə tutur. Yeniyetməyə qarşı tələblər sisteminin po- zulma forması müxtəlifdir:

- Tələblərin (vəzifələrin) həddindən artıq çoxluğu.

-Son dərəcə yüksək mənəvi məsuliyyət. Belə olduğu halda yeniyetmələrə verilən tələb son dərəcə böyükdür, onun imkanlarına uyğun deyil və şəxsiyyətin inkişafına kömək etmək əvəzablarına İnkişafını təhlükə altına alır. Bu vəzifələrin çoxluğunun iki məqamı daha vacibdir. Onlardan birində yeniyetmənin üzərinə valideynlərin vəzifələrinin az, yaxud daha çox mühüm hissəsi (təsərrüfat işlərinin aparılması, kiçik yaşlı uşaqlara baxmaq və s.) düşür. Belə valideynlər adətən hiss edirlər ki, yeniyetmə həddən artıq yüklənib. Lakin onlar bu yükün çoxluğunu görmək istəmir, ailədə vəziyyətin özü- nün bunu tələb etdiyinə daha çox inanırlar. Digər hallarda isə, onlar yeniyetmədən təhsildə və digər aparıcı məşğuliyyət növlərində (məsələn, bədii fəaliyyətdə, idmanda və s.) daha böyük müvəffəqiyyət görmək istəyirlər.

- Yeniyetmənin vəzifələrinin natamamlığı. Belə halda yeniyet- mə ailədə son dərəcə azsaylı vəzifələr yerinə yetirir ki, nəticədə onu hər hansı bir ev işinə cəlb etmək çətin olur.

4. Qadağa - tələblərin sayı. Hər şeydən öncə, o yeniyetmənin müstəqillik dərəcəsi ilə müəyyən olunur və onun öz davranışını seçmək üsulunu ortaya atır. Bununla bağlı iki kənarlaşma halı ortaya çıxa bilər: həddindən artıq qadağan tələblərin çoxluğu, yaxud da ki, onların azlığı.

Qadağa - tələblərin çoxluğu. Belə halda yeniyetməyə hər şeyə "olmaz, qadağandır!"- deyə yanaşılır, onun davranışını, fəaliyyətini məhdudlaşdıran çoxsaylı tələblər qoyulur. Bu isə, müəyyən dərcədə, onun azadlığını, müstəqilliyini əlindən alır. Bəzən valideyn- lər, hətta yeniyetmənin müstəqil fikirlərini də boğmağa çalışırlar. Belə vəziyyət zəif yeniyetmələrdə emansipasiya reaksiyasının inkişafını stimullaşdırır (valideynlərə, yaxud hər hansı digər nüfuzlu adamlara qarşı çıxma).

Yeniyetməyə qadağa-tələblərin azlığı. Belə yeniyetmə hər hansı qadağalar varsa belə, onları asanca poza bilir. O, axşamı evə qayıtma vaxtını, dost seçimini, siqaret, spirtli içkilərdən istifadəni və 5. özü müəyyənləşdirir. O, heç bir şeylə bağlı

valideynlərinə hesabat vermir. Valideynlər də belə olduqda onun davranışına heç bir çərçivə qoymağa çalışmırlar. Belə tərbiyə hipertimlərin, xüsusən də qeyri-sabit tiplərin inkişafını stimullaşdırır.

5. Sanksiyalar. Sanksiyaların həddindən artıq çox olması da tərbiyənin sərt üsullarından biri kimi qiymətləndirilir. Bu halda valideynlərə cəzalara müraciət etmə və ən xırda davranış pozulmalarına sərt reaksiya vermə xarakterikdir. Sanksiyaların azlığında valideynlər belə cəza növlərindən kənar keçir, ya da ki, onu çox az hallarda tətbiq edirlər. Onlar yalnız uşaqları mükafatlandırmağı düşünür və heç də cəzanın nəticəsinin yaxşı olacağına inanmırlar.

6. Tərbiyə üsulunun qeyri-sabitliyi. Tərbiyə üsulunun, tərbiyə priyomlarının sərt şəkildə dəyişilməsi son dərəcə sərt liberal bir cəhətə keçiddir və buna görə də burada emosional səfillikdən daha çox yeniyetmənin xarakterindəki fərqlərlə bağlı məqamlara diqqət yetirilməlidir. Alman psixiatrı P.Leonqardın müşahidələrinə görə, belə üsul uşaqlarda elə cəhətlərin formalaşmasına təsir edir ki, onlar inadkarlıq, yaxud hər hansı bir nüfuzlu insanla qarşıdurmanı və s. nəzərdə tutur. Belə yeniyetmələrin valideynləri, adətən, bu yeniyetmələrin tərbiyəsindəki xeyli tərəddüdlü cəhətləri etiraf edir, lakin bu əyintilərin gücünü və tezliyini nəzərə almır, qiymətləndirmirlər.

Valideyn davranışının neqativ xüsusiyyətləri, uşaqlarda dav- ranış pozuntularının formalaşması və əsəbi vəziyyətləri üçün əsas səbəbdir. Yeniyetmə ailənin diqqət mərkəzindədir, ailə onun tələb- lərinin maksimum dərəcədə təmin olunmasına can atır. Tərbiyənin belə tipi yeniyetmədə isteroit və hipertim xarakter xüsusiyyətinin inkişafına kömək edir. Hiperhimayəçilik zamanı yeniyetmə daim valideynlərin diqqət mərkəzində olur və belə halda bu, yeniyetməni müstəqillikdən, özünüidarəetmədən kənarlaşdırır, valideynlər isə ona güc, vaxt sərf edir və onun üçün çoxsaylı qadağalar, məhdudiyyətlər qoyurlar. Belə tərbiyə hipertim yeniyetmənin zəif xüsu- siyyətlərini daha da gücləndirir. Emosional rəddetmədə uşağın tələbləri nəzərə alınmır və bəzən yeniyetmə ilə son dərəcə sərt davranılır, pis rəftar edilir. Yeniyetməyə yüksək mənəvi tələblərin verilməsi valideynlər tərəfindən az diqqət və qayğının nümayişi ilə müşayiət olunur. Tərbiyənin bu tipi psixastenik aksentuasiya xarakterinə xas xüsusiy- yətlərin inkişafını stimullaşdırır. Nəzarətsizlik son dərəcə zəif tə- ləblərin yeniyetməyə ünvanlanmasının nəticəsidir. Yeniyetmənin valideynləri onunla maraqlanmır, onu nəzarətdə saxlamırlar. Belə tərbiyə hipertim aksentuasiyalar daha pis təsir göstərməklə, qeyri-sabit tipə aid olur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 335-344*

**Ahmadova Aybaniz**
**Qasımova Sabina**

## PRINCIPLES AND CONTENT OF FAMILY EDUCATION
## Summary

Family means meeting the optimal soco-pedogogical reguirements of people continuing the generation, and serving to protect it.

The purpose of family education is to elimilife in the personality.

The main place in family education is spiritual education.

Parents need to have a deepen relationship with theirchildren to know what they are thinking.

Parents can prevent their children's deficiency in this situation.

Parents should treat their children's secrets properly.

Other relationships are found between children and parents.

Some parents devote more time to themselves, but the children are left out.

At this time,resentment and loneliness arise in children.

Pedagogical ignorance of parents can lead hostility between children and parents.

A number of indicators are touched on in the behavior of parents:

1. The levee of patronage in the upbringing process.
2. Meeting the needs of adolescents.
3. The number of reguests for a teenager in the family.
4. Ban -number of reguests.

**Ахмедова Айбениз,**
**Касумова Сабина,**

## ПРИНЦИПЫ И СОДЕРЖАНИЕ СЕМЕЙНОГО ВОСПИТАНИЯ.
## РЕЗУМЕ

Семья -это удовлетворение оптимальных социально -педагогических потребностей людей,продолжение рода и служение его охране.Цель семейного воспитания устранение трудностей и препятствий на жизненном пути личности. Главное место всемейном воспитании занимает духовное воспитание. Родителям необходимо иметь более глубокие отношения со своими детьми, чтобы знать о чем думают.

Родители могут предотвратить дефицит у своих детей в этот ситуации.

Родители должны правильно относиться тайнам своих детей.

Другие отношения встречаются между детьми иродителями.

Некоторые родители уделяют больше времени себе,но дети остаются в стороне. В это время у детей возникает обида и одиночество.

Педагогическая неграмотность родителей может привести к враждебным отношениям между детьми иродителями.

В поведении родителей затрагивается ряд показатилей:

1. Уровень щерства в воспитательном процессе.
2. Удовлетворение потребностей подростков.
3. Количества запросов подростка в семье.
4. Ван-количество запросов.

## Ədəbiyyat

1.Lyn Ashmore and Denise Robinson. Learning, teaching and development, SAGE, London, 2015.

2.Motamedi V., Sumrall W.J. Mastery learning and contem- porary issues in education. Action in Teacher Education, 2000.

3.Mueller D. J. Mastery learning: Partly boon, partly boon- doggle. Teachers College Record, 1976.

4.Ross L.L., McBean D. A comparison of pacing contingen- cies in classes using a personalized system of instruction. Journal of Applied Behavior Analysis, 1995

5.Slavin R. E. An Introduction to Cooperative Learning. New York, NY: Longman; 1983.11gust

6.Slavin R.E., Karweit N.L. Mastery learning and student teams: A factorial experiment in urban general, Mathematics classes. American Educational Research Journal, 1984.

7. Wentling T.L. Mastery versus non-mastery instruction with varying test item feedback treatments. Journal of Educational Psy- chology, 1973.

8.Woods P. R., Barker, M. C., Daly A. Teaching intercultural skills in the multicultural classroom. Paper presented at the 4th An nual International Conference on Business, Honolulu, 2004.

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məhəbbət Əsədova***